# KLASSİK ƏDƏBİYYATDA BAHARİYYƏLƏR

**Ataəmi Mirzəyev**

*AMEA-nın Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu, Bakı*
*ataemi@rambler.ru*

Tarixən təbiətin yuxudan oyanması, cana gəlməsi bayram olaraq qeyd edilmiş, yeni ilin, yeni günün başlanğıcı kimi xalq adət-ənənəsində özünə möhkəm yer tutmuşdur. Şairlərimiz yaşıl təbiətin, yaşıl dünyanın yaratdığı xoş mənzərə və gözəllikləri, onların insanlara bəxş etdiyi füsunkar nemətləri böyük sevgi və məhəbbətlə öz əsərlərində canlandırmışlar.

Bu baxımdan klassik divan ədəbiyyatında təbiət təsvirlərinə, ilin müxtəlif fəsillərinə aid məlumatlara geniş yer verilmişdir. Şərq ədəbiyyatında baharın, yayın, payızın və qışın gəlişinə həsr edilmiş çoxlu sayda şeir nümunələri vardır. Divan şeirində ilin dörd fəsli içərisində ən gözəli olan bahar mövzusunda müxtəlif formalarda, çeşidli məzmunlarda şeirlər yazılmışdır. Belə məzmunlu şeirlər bahariyyə, bahariyyət və novruziyyə adlanır. Bahariyyələr "Bahariyyət", "Sifati-bahar", "Qəsideyi-bahar", "Dər vəsfi-əhvali-bahar" kimi terminlərlə də adlanmışdır. "Bahariyyə" sözü lüğəvi mənada "bahara aid, baharla bağlı olan" anlamına uyğun gəlir. Bahariyyələrdə baharın gözəlliyi, bahar mənzərələri və çiçəklər rəngarəng və çeşidli bənzətmələrlə olduqca qeyri-adi bir dildə vəsf edilir. Sevgi, məhəbbət və gözəllik müjdəçisi olan baharı, adətən, öz ordusu ilə qış sultanını məğlubiyyətə uğratmış bir sultana bənzədirlər. Bahar dedikdə çox vaxt gül, bülbül, lalə, bənövşə, sünbül, yasəmən, zanbaq, sərv, çəmən, nəsim kimi sözlər yada düşür.

Bahariyyələr daha çox qəzəl, qəsidə və məsnəvi formalarında olur. Ana kitabımız "Kitabi-Dədə Qorqud" dastanında, ozan-aşıq yaradıcılığında da bahariyyələrə geniş yer verilmişdir. Ustad aşıqların əksəriyyəti yazın gözəlliklərini vəsf edən incə ruhlu bahariyyələr düzüb-qoşmuşlar. Klassik Azərbaycan ədəbiyyatında demək olar ki, bütün sənətkarların yaradıcılığında müxtəlif formalarda olan bahariyyələrə rast gəlirik. Burada ədəbiyyat tariximizdə daha öndə gələn sənətkarlarımızın yaradıcılığına diqqət yetiriləcək, mövzu onların poetik irsindən gətirilən nümunələr əsasında izah ediləcəkdir. Bu baxımdan öz "Xəmsə"si ilə bütün dünyada məşhur olan Nizami Gəncəvinin (1141-1209) müxtəlif poemalarında da ilin bahar fəslini, onun təbiətə gətirdiyi gözəllikləri əks etdirən nümunələr vardır. Örnək olaraq "İsgəndərnamə" poemasında Bərdənin gözəlliyi ilə bağlı hissəyə diqqət edək:

Bərdə nə gözəldir, necə qəşəngdir,
Yazı da, qışı da güldür, çiçəkdir.
İyulda dağlara lalələr səpər,
Qışını baharın nəsimi öpər.
O yaşıl meşəsi cənnətə bənzər,
Şən ətəklərinə bağlamış kövsər.
Söyüdlük çöllərə vermişdir zinət,
Ağ bağı elə bil həqiqi cənnət.

Qırqovul yuvası hər sərv ağacı,
Oxuyur kəkliyi, ötür turacı.
Səssizlik içində dincəlir gülşən,
Torpağı silinmiş qayğı, kədərdən.

Azərbaycan ədəbiyyatında daha çox sufi-fəlsəfi məzmunlu şeirəri ilə tanınan İmadəddin Nəsiminin (1369-1417) saf məhəbbətə və təbiət gözəlliklərinə həsr edilmiş əsərləri də çoxdur. Həmin şeirlər içərisində bahariyyələr də xüsusi yer tutur. Aşağıdakı nümunədə lirik qəhrəman sevgilisini baharın gəlişi ilə yaranmış xoş mənzərəyə tamaşa etməyə çağırır. Bülbülə gözaydınlığı olsun ki, qönçələr pərdədən çıxmışdır. Lalələr açılmış, bağ ilə bostan qırmızı rəngə boyanmışdır. Gülşənin – gül və çiçəkliyin gözəlliyi güllərin rənginə boyanmışdır:

Bahar oldu, gəl ey dilbər, tamaşa qıl bu gülzarə,
Buraxdı qönçələr pərdə bəşarət bülbüli-zarə.
Şəqayiq pərdədən çıxdı, boyandı bağ ilə bostan,
İrişdi gülşənin hüsnü boyandı rəngi əzharə...

Nəsiminin aşağıdakı qəzəlini isə novruziyyə adlandırmaq olar. Gözəl bir təbiət mənzərəsinin təsvirini yaradan şair novruzun gəlişi ilə bütün aləmin oyandığını, təbiətin açılan gül və çiçəkdən yeni bir xələt geyindiyini obrazlı şəkildə, poetik bir dildə belə verir:

Mövsimi-novruzü neyistan aşikar oldu yenə,
Şəhrimiz şeyxi bu gün xoş badəxar oldu yenə.
Qönçədən gül baş çıxardı, saldı üzündən niqab,
Bülbüli-şeyda xətibi-laləzar oldu yenə.
Köhnə dünya yengi xəl'ət geydi bu mövsümdə uş,
Çöhrəsi dövri bu gün nəqşü nigar oldu yenə.
Nərgisi gör, cam əlində mey sunar ariflərə,
Cümləsin məst eylədi, kəndi xumar oldu yenə...

Ədəbiyyat tariximizdə hökmdar-şair kimi tanınan Şah İsmayıl Xətainin (1487-1524) yaradıcılığında da təbiət gözəlliklərinin təsviri xüsusi yeri tutur. Hətta şairin həcmcə ən böyük əsəri olan "Dəhnamə" poemasında xüsusi bir hissə "Bahariyyə" adlanır. Onu da qeyd edək ki, orta əsrlər epik şeirində "Bahariyyə" dedikdə ilk yada düşən də Şah İsmayıl Xətainin əsəri olur. "Dəhnamə" poemasının rəsmi girişindən sonra gələn və əsas hissəyə keçid rolunu oynayan "Bahariyyə" 62 beytdən ibarətdir. Azərbaycan ədəbiyyatında baharın gəlişini bütün gözəlliyi və təfsilatı ilə belə geniş planda verən ikinci bir əsər demək olar ki, yoxdur. Doğrudur, Məhəmməd Füzulinin qəzəl və qəsidələri ilə yanaşı, poemalarında da baharın gəlişinin təsvirinə həsr edilmiş xüsusi hissələr vardır və onlar bütövlükdə həcm etibarilə Xətainin "Bahariyyə"sindən də böyükdür. Amma Xətainin "Bahariyyə"si baharın gəlişini bütün detalları ilə sərgiləyən birnəfəsə deyilmiş sənət əsəri kimi diqqəti cəlb edir. Örnək olaraq aşağıdakı beytlərə diqqət edək:

Qış getdi, yenə bahar gəldi,
Gül bitdivü və laləzar gəldi.
Quşlar qamusu fəğanə düşdü,
Eşq odu yenə bu canə düşdü.
Yer geydi qəbayi-xizar puşan,
Cümlə dilə gəldi ləbxamuşan.
Qönçə dəhəni çəməndə xəndan,
Gülməkdən ənar açıldı dəndan.
Bülbül oxudu süfati-hicran,
Dəryada dür oldu əbri-neysan...
Yüz dürlü qəba geyib çəmənlər,
Ağ donunu geydi yasəmənlər.

Öncə qeyd edildiyi kimi, Məhəmməd Füzulinin (1494-1556) yaradıcılığında da bahariyyələr geniş yer tutur. Şairin qəzəl və qəsidələri ilə yanaşı, poemalarında da baharın gözəlliklərinin təsvirinə dəfələrlə müraciət edilmişdir. "Leyli və Məcnun" poemasının "Bu Leyliyə Məcnun güzərdə müqabil olduğudur və

gün müqabilində hilali-mehri bədri-kamil olduğudur”adlı fəslindən verilən aşağıdakı hissə bədii zaman və məkan yaratmaq baxımından klassik bahariyyədir:

Bir gün ki, bahari-aləməfruz.
Vermişdi cəhanə feyzi-novruz.
Salmışdı niqab çöhrədən gül,
Çəkmişdi sürud-nalə bülbül.
Şəbnəm meyi-nabı ilə lalə.
Doldurmuş idi qızıl piyalə...

Əlbəttə, bu cür poetik sənətkarlıqla qurulmuş bahariyyələr öz bədii keyfiyyətləri ilə yanaşı, həm də poemanın kompozisiya elementi kimi də diqqəti cəlb edir. Bu baxımdan Füzulinin meyvələrin bir-biri ilə olan bəhsinə həsr edilmiş “Söhbətül-əsmar” məsnəvisinin də bahariyyə ilə başlaması təsadüfi sayılmamalıdır.

Füzulinin qəsidələrində də bahariyyələr vardır. Qazi Nemətullaha ünvanlanmış qəsidədə baharın gəlişindən yaranan əsrarəngiz gözəlliyə həsr edilmiş aşağıdakı hissəyə diqqət edək:

Növbahar oldu, cahanın yenə xoş dəmləri var,
Bağın al hüsnü gözəl, lalə kimi dilbəri var.
Göy çəmənlərdə çiçəklər verir insana fərəh,
Belə nemətlər ilə fəxr eləsən, çox yeri var.
Gülün eşqilə budaqlar ucalır əflakə,
Öyünür, qürrələnir, çünki belə ziyvəri var.
…Nərgis istər ola baş güllərə gülşəndə bu gün,
Bu məram ilə onun başda qızıl əfsəri var.
Yenə cansız ota can verdi təbiət təzədən,
Səfhe-yi səhn-i çəmən aləminin məhşəri var...

Füzuli elə sənətkardır ki, o, bəzən Novruz bayramından qəzəlin ümumi ruhuna uyğun bir şəkildə istifadə edir. Şairin aşağıda verilən beytinə görə, güllərin açılması üçün ildə bir dəfə Novruz olsa da, məşuqənin vüsalının həsrəti aşiqin könlünü hər gün yenidən açır. Başqa sözlə desək, yarla görüşdüyü hər yeni gün aşiq üçün güllərin açıldığı bir novruz kimidir:

Hər gün açır könlümü zövqi-vüsalın yengidən,
Gərçi güllər açmağa hər ildə bir Novruz olur.

Azərbaycan ədəbiyyatı tarixində baharı Füzuli qədər tərənnüm edən ikinci bir şair demək olar ki, yoxdur. Amma onu da deyək ki, Füzulidən sonrakı dövrdə yaşayıb-yaratmış Məhəmməd Əmani, Qövsi Təbrizi, Molla Pənah Vaqif, Qasım bəy Zakir, Seyid Əbülqasim Nəbati, Seyid Əzim Şirvani və digər sənətkarların yaradıcılığında da yazın gəlişinə həsr edilmiş bahariyyələr vardır.